**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

**Q Ə R A R**

**№ 39/06**

**Bakı şəhəri** **29 oktyabr 2024-cü il**

# "Əhalinin məşğulluğu haqqında" 12-məşğulluq №-li aylıq və 4-məşğulluq №-li rüblük rəsmi statistika hesabatı formaları və onların doldurulmasına dair göstəriş haqqında" Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2012-ci il 9 iyul tarixli 50/6 nömrəli qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə"nin 9.6-cı və 14.4-cü bəndlərini rəhbər tutaraq, "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 25 iyun tarixli 1184-VIQD nömrəli Qanununun tətbiqi və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 233 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 8 iyul tarixli 132 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 15 iyul tarixli 377s nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**qərara alır:**

1. "Əhalinin məşğulluğu haqqında" 12-məşğulluq №-li aylıq və 4-məşğulluq №-li rüblük rəsmi statistika hesabatı formaları və onların doldurulmasına dair göstəriş haqqında" Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2012-ci il 9 iyul tarixli 50/6 nömrəli qərarında aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin qərarla təsdiq edilmiş "Əhalinin məşğulluğu haqqında" 12-məşğulluq №-li aylıq rəsmi statistika hesabatı formasının:

1.1.1. "I bölmə. İşaxtaran və işsiz şəxslərin işə düzəldilməsi və məşğulluğu" cədvəlinə aşağıdakı məzmunda 24-2 – 24-4-cü sətirlər əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| Kvota üzrə işə düzələn şəxslər, nəfər | 24-2 | | |
| Kvotadan əlavə işə düzələn şəxslər, nəfər | 24-3 | | |
| Məqsədli proqramlara cəlb olunan şəxslər, nəfər | 24-4 | | |

1.1.2. "II bölmə. İqtisadi rayonlar və inzibati ərazi vahidləri üzrə işaxtaran və işsiz şəxslərin işə düzəldilməsi və məşğulluğu, cəmi" və "III bölmə. İqtisadi rayonlar və inzibati ərazi vahidləri üzrə işaxtaran və işsiz şəxslərin ümumi sayından qadınların işə düzəldilməsi və məşğulluğu, cəmi" cədvəllərinə 24-2 – 24-4-cü sütunlar əlavə edilsin.

1.2. həmin qərarla təsdiq edilmiş "Əhalinin məşğulluğu haqqında" 4-məşğulluq №-li rüblük rəsmi statistika hesabatı formasının "VII bölmə. Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin kvota üzrə işə düzəldilməsi" cədvəli yeni redaksiyada verilsin (əlavə olunur).

1.3. həmin qərarla təsdiq edilmiş "Əhalinin məşğulluğu haqqında" 12-məşğulluq №-li aylıq və 4-məşğulluq №-li rüblük rəsmi statistika hesabatı formalarının doldurulmasına dair göstəriş"in:

1.3.1. "2. Hesabat formalarında istifadə edilən əsas anlayışlar" bölməsinin 2.7-ci bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.8-ci bənd əlavə edilsin:

"2.8. Məqsədli proqramlar – sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin olunması məqsədilə iş yerlərinin yaradılmasının "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən işsizlikdən sığorta vəsaiti hesabına maliyyələşdirilməsini nəzərdə tutan aktiv məşğulluq tədbiri.";

1.3.2. "3. 12-məşğulluq №-li aylıq rəsmi statistika hesabatı formasının doldurulmasına dair izahlar" bölməsinə aşağıdakı məzmunda 3.1.13-2-ci yarımbənd əlavə edilsin:

"3.1.13-2. 24-2-ci sətirdə kvota üzrə işə düzələn şəxslərin sayı, 24-3-cü sətirdə kvotadan əlavə işə düzələn şəxslərin sayı, 24-4-cü sətirdə məqsədli proqramlara cəlb olunmuş şəxslərin sayı qeyd edilir.";

1.3.3. "4.7. VII bölmə. Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin kvota üzrə işə düzəldilməsi" bölməsi aşağıdakı redaksiyada verilsin:

**"4.7. VII bölmə. Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin işə düzəldilməsi**

4.7.1. 1-ci sütunda kvota yeri müəyyən olunmuş müəssisələrin sayı, 2-ci sütunda müəyyən olunmuş kvota yerlərinin sayı, 3-cü və 4-cü sütunlarda hesabat ilinin əvvəlindən müəyyən olunmuş kvota yerlərinə işə düzəldilmiş şəxslərin, o cümlədən qadınların sayı, 5-ci və 6-cı sütunlarda hesabat ilinin əvvəlindən kvota əsasında işi davam etdirən şəxslərin, o cümlədən qadınların sayı qeyd edilir. 7-ci sütunda kvotadan əlavə iş yerləri yaradılmış müəssisələrin sayı, 8-ci sütunda kvotadan əlavə yaradılmış iş yerlərinin sayı, 9-cu və 10-cu sütunlarda hesabat ilinin əvvəlindən kvotadan əlavə yaradılmış iş yerlərinə işə düzəldilmiş şəxslərin, o cümlədən qadınların sayı, 11-ci və 12-ci sütunlarda hesabat ilinin əvvəlindən kvotadan əlavə yaradılmış iş yerlərində işi davam etdirən şəxslərin, o cümlədən qadınların sayı qeyd edilir. 13-cü sütunda məqsədli proqramlar həyata keçirilən müəssisələrin sayı, 14-cü sütunda məqsədli proqramlar üzrə yaradılmış iş yerlərinin sayı, 15-ci və 16-cı sütunlarda hesabat ilinin əvvəlindən məqsədli proqramlar üzrə yaradılmış iş yerlərinə işə düzəlmiş şəxslərin, o cümlədən qadınların sayı, 17-ci və 18-ci sütunlarda hesabat ilinin əvvəlindən məqsədli proqramlar üzrə yaradılmış iş yerlərində işi davam etdirənlərin, o cümlədən qadınların sayı qeyd edilir.

4.7.2. 3-6-cı, 9-12-ci və 15-18-ci sütunlar üzrə əlilliyi olan şəxslərin sayı 02-ci sətirdə, şəhid ailəsinin üzvlərinin sayı 03-cü sətirdə, 20 yaşadək gənclərin sayı 04-cü sətirdə, 1 və ya daha çox uşağını təkbaşına böyüdən, 5 və daha artıq uşağı olan valideynlərin sayı 05-ci sətirdə, 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşaqları tərbiyə edən valideynlərin sayı 06-cı sətirdə,

pensiya yaşına iki ildən az qalmış şəxslərin sayı 07-ci sətirdə, cəzaçəkmə yerlərindən azad edilmiş şəxslərin sayı 08-ci sətirdə, məcburi köçkünlərin sayı 09-cu sətirdə qeyd edilir.

4.7.3. Kvota yeri müəyyən olunmuş müəssisələrin, müəyyən olunmuş kvota yerlərinin, müəyyən olunmuş kvota yerlərinə işə düzəldilmiş şəxslərin, kvota əsasında işi davam etdirən şəxslərin, kvotadan əlavə iş yerləri yaradılmış müəssisələrin, kvotadan əlavə yaradılmış iş yerlərinin, kvotadan əlavə yaradılmış iş yerlərinə işə düzəldilmiş şəxslərin, kvotadan əlavə yaradılmış iş yerlərində işi davam etdirən şəxslərin, məqsədli proqramlar həyata keçirilən müəssisələrin, məqsədli proqramlar üzrə yaradılmış iş yerlərinin, məqsədli proqramlar üzrə yaradılmış iş yerlərinə işə düzəlmiş şəxslərin, məqsədli proqramlar üzrə yaradılmış iş yerlərində işi davam etdirən şəxslərin sayının mülkiyyət növləri üzrə bölgüsü 10-12-ci sətirlərdə qeyd edilir.”.

2. Qərar qəbul edildiyi gündən üç gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

3. Aparatın Əmək statistikası şöbəsinə tapşırılsın ki, bu qərardan irəli gələn məsələləri həll etsin.

4. Qərarın icrasına nəzarət Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinə həvalə olunsun.

**Sədrin səlahiyyətlərini müvəqqəti icra edən, sədrin birinci müavini** **Vahab Məmmədov**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin
2024-cü il 29 oktyabr tarixli 39/06 nömrəli qərarına əlavə

## VII bölmə. Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin işə düzəldilməsi

| Göstəricinin adı | Sətrin kodu | Kvota yeri müəyyən olunmuş müəssisələrin sayı | Müəyyən olunmuş kvota yerlərinin sayı | Müəyyən olunmuş kvota yerlərinə işə düzəldilmişdir (hesabat ilinin əvvəlindən) | | Kvota əsasında işi davam etdirənlər (hesabat ilinin əvvəlindən) | | Kvotadan əlavə iş yerləri yaradılmış müəssisələrin sayı | Kvotadan əlavə yaradılmış iş yerlərinin sayı | Kvotadan əlavə yaradılmış iş yerlərinə işə düzəldilmişdir (hesabat ilinin əvvəlindən) | | Kvotadan əlavə yaradılmış iş yerlərində işi davam etdirənlər (hesabat ilinin əvvəlindən) | | Məqsədli proqramlar həyata keçirilən müəssisələrin sayı | Məqsədli proqramlar üzrə yaradılmış iş yerlərinin sayı | Məqsədli proqramlar üzrə yaradılmış iş yerlərinə işə düzəldilmişdir | | Məqsədli proqramlar üzrə yaradılmış iş yerlərində işi davam etdirənlər (hesabat ilinin əvvəlindən) | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | Cəmi, nəfər | onlardan qadınlar | Cəmi, nəfər | onlardan qadınlar | | | Cəmi, nəfər | onlardan qadınlar | Cəmi, nəfər | onlardan qadınlar | | | Cəmi, nəfər | onlardan qadınlar | Cəmi, nəfər | onlardan qadınlar |
| A | B | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| Cəmi | 01 | | | | | | | | | | | | | | | | | | |
| Əlilliyi olan şəxslər | 02 | x | x | | | | | x | x | | | | | x | x | | | | |
| Şəhid ailəsinin üzvləri | 03 | x | x | | | | | x | x | | | | | x | x | | | | |
| 20 yaşadək gənclər | 04 | x | x | | | | | x | x | | | | | x | x | | | | |
| 1 və ya daha çox uşağını təkbaşına böyüdən, 5 və daha artıq uşağı olan valideynlər | 05 | x | x | | | | | x | x | | | | | x | x | | | | |
| 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşaqları tərbiyə edən valideynlər | 06 | x | x | | | | | x | x | | | | | x | x | | | | |
| Pensiya yaşına 2 ildən az qalmış şəxslər | 07 | x | x | | | | | x | x | | | | | x | x | | | | |
| Cəzaçəkmə yerlərindən azad edilmiş şəxslər | 08 | x | x | | | | | x | x | | | | | x | x | | | | |
| Məcburi köçkünlər | 09 | x | x | | | | | x | x | | | | | x | x | | | | |
| 01-ci sətirdən mülkiyyət növləri üzrə: | | | | | | | | | | | | | | | | | | | |

| | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Dövlət | 10 | | | | | | | | | | | | | | | | | | |
| onlardan büdcə təşkilatları | 11 | | | | | | | | | | | | | | | | | | |
| Qeyri-dövlət | 12 | | | | | | | | | | | | | | | | | | |